Milli Məclisin iclasında

Şəxsiyyət vəsiqəsində olan məlumatların dairəsində dəyişiklik ediləcək

İyulun 4-də Milli Məclisin növbədənkənar sessiyasının iclası keçirilib. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan Milli Məclisin Sədri Sahibə Qafarova əvvəlcə başçılığı ilə nümayəndə heyətinin iyunun 30-da və iyulun 1-də Özbəkistan Respublikasına işgüzar səfəri barədə məlumat verib.

Spiker bildirib ki, səfərdə məqsəd Birinci Azərbaycan-Özbəkistan Parlamentlərarası Forumunda iştirak etmək idi. Səfərdə 28 deputatımız, o cümlədən Milli Məclisin Sədr müavini, 7 komitə sədri, 6 komitə sədrinin müavini və müxtəlif komitələrin 13 üzvü iştirak edib. Deputatlardan 9 nəfəri qadınlar idi. Qeyd olunub ki, bu tədbir Milli Məclisin hər hansı digər ölkənin qanunvericilik orqanı ilə keçirdiyi ilk forum idi. Bu gün toplantının yekunlarını da nəzərə alaraq inamla söyləmək olar ki, forum parlamentlərimiz arasında əməkdaşlığın səmərəli bir mexanizminə çevriləcək.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, iyulun 1-də Xivə şəhərində işə başlayan forumda "Yeni üfüqlərə doğru: Dialoqdan birgə fəaliyyətə" mövzusunda müzakirələr aparılıb. Hər iki ölkənin parlament sədrləri çıxış ediblər. Spiker deyib ki, forumdakı çıxışında dost və qardaş ölkələr olan Azərbaycanla Özbəkistan arasında münasibətlərin dərinləşməsində Ulu Öndər Heydər Əliyevin böyük xidmətlərini qeyd edib. Azərbaycan Prezidenti İlham Əliyevin və Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin rəhbərliyi ilə ölkələrimizin hər cəhətdən müstəqil və güclü dövlətlər kimi inkişaf etdiyini vurğulayıb. Sahibə Qafarova 2024-cü ildə Azərbaycanla Özbəkistan arasında Müttəfiqlik münasibətləri haqqında Müqavilə imzalandıqdan sonra ölkələrimizin ikitərəfli əlaqələrinin keyfiyyətcə yeni səviyyəyə yüksəldiyini bildirib.

Qanunvericilik orqanları arasında əməkdaşlığın vəziyyəti və inkişaf perspektivləri barədə fikirlərini bölüşdürdüyünü deyən Sahibə Qafarova qeyd edib ki, "Azərbaycan Respublikasının Milli Məclisi ilə Özbəkistan Respublikası Ali Məclisinin Senatı arasında əməkdaşlıq haqqında Saziş"in imzalanması, "Yol xəritələri"nin həyata keçirilməsi, habelə beynəlxalq parlament strukturlarında bir-birimizə davamlı qarşılıqlı dəstək göstərilməsi əlaqələrimizin yüksək səviyyəsini nümayiş etdirir.

Forum çərçivəsində keçirilən 6 panel sessiyasında bir çox mühüm məsələlər ilə bağlı ətraflı müzakirələr aparılıb. Sessiyalarda 22 deputatımız fəal iştirak edib. Müzakirələrdə 6 deputatımız moderatorluq edib, 16 deputatımız isə fərqli mövzular üzrə çıxış ediblər.

Forumun yekununda Xivə Bəyannaməsi qəbul olunub.

Spiker qeyd edib ki, forum çərçivəsində onun Özbəkistan Ali Məclisi Senatının Sədri xanım Tənzilə Narbayeva ilə görüşü olub. Görüşdə Azərbaycan ilə Özbəkistan arasında yüksəksəviyyəli əlaqələrin parlament müstəvisində də uğurla davam etdirildiyi qeyd olunub. Qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

Forum çərçivəsində Azərbaycan Respublikasının Milli Məclisi ilə Özbəkistan Respublikası Ali Məclisinin Senatı arasında "Parlamentlərarası əməkdaşlığın inkişafına dair 2025-2026-cı illər üçün praktiki tədbirlər planı" imzalanıb.

Forumun mühüm nəticələrindən biri də Azərbaycan Respublikasının Milli Məclisi ilə Özbəkistan Respublikasının Ali Məclisi arasında əməkdaşlıq üzrə Parlamentlərarası Komissiyanın Nizamnaməsinin imzalanması olub.

Daimi fəaliyyət göstərən bu orqan ikitərəfli əməkdaşlıq gündəliyini daha səmərəli şəkildə həyata keçirməyə kömək göstərəcək.

Hər iki sənədi parlament sədrləri imzalayıblar.

Milli Məclisin Sədri bildirib ki, Azərbaycan və Özbəkistan parlamentlərinin sədrləri Parlamentlərarası Forumla bağlı yerli mətbuata bəyanatla çıxış ediblər. Aparılan müzakirələrin ikitərəfli əməkdaşlıq əlaqələrinə müsbət təsir göstərəcəyinə inam ifadə olunub.

Spiker Özbəkistan Respublikasına işgüzar səfərin uğurlu olduğunu qeyd edib və bununla əlaqədar nümayəndə heyətinin hər bir üzvünə minnətdarlığını bildirib.

Sonra gündəlikdəki məsələlərin müzakirəsi başlayıb. Parlamentin Sədri Sahibə Qafarova iclasın gündəliyinə 22 məsələnin daxil edildiyini, birinci məsələnin qərar layihəsi olduğunu diqqətə çatdırıb. Qeyd olunub ki, ölkə Prezidentinin təqdimatına əsasən, Milli Məclis Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi hakimlərinin təyin edilməsi məsələsinə baxmalıdır.

İclasda Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov bu məsələ barədə məlumat verib. O, Azərbaycan Respublikası Prezidentinin Otari Qvaladze, Fərhad Tutayuk, Rauf Quliyev və Rəşid Rzayevin Konstitusiya Məhkəməsinin hakimi vəzifəsinə təyin edilməsi məsələsinə baxılması üçün Milli Məclisə müraciət etdiyini deyib. Millət vəkili namizədlərin ikisinin icra hakimiyyətinin, digər iki nəfərin isə məhkəmə hakimiyyətinin təmsilçiləri olduğunu söyləyib, onların fəaliyyəti və iş təcrübəsi barədə məlumatı təqdim edib. Qeyd edib ki, namizədlərin uzunmüddətli hüquq təcrübəsi və bilikləri əsas məqsədləri Azərbaycan Respublikası Konstitusiyasının aliliyini təmin etmək, hər kəsin əsas hüquq və azadlıqlarını müdafiə etməkdən ibarət olan Konstitusiya Məhkəməsinin hakimi vəzifəsinin səmərəli şəkildə, peşəkarlıqla icra olunmasını təmin edəcək.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında qərar layihəsi səsə qoyularaq qəbul edilib.

Spiker Sahibə Qafarova nəzərə çatdırıb ki, "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 13-cü maddəsinə uyğun olaraq, Konstitusiya Məhkəməsinin hakimi vəzifəyə təyin edildiyi gün Milli Məclisin iclasında and içir.

Konstitusiya Məhkəməsinin yeni təyin edilmiş hakimləri Otari Qvaladze, Fərhad Tutayuk, Rauf Quliyev və Rəşid Rzayev iclasda and içiblər.

Sonra "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş) müzakirəyə çıxarılıb. Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov məsələni təqdim edərək bildirib ki, qanun layihəsi və müvafiq hesabat barədə birinci və ikinci oxunuşda geniş məlumat verilib. Komitə sədri dövlət büdcəsinin icrasının qanun şəklində təsdiq olunmasının şəffaflığın təmin edilməsi, parlamentin büdcəyə nəzarət reqlamentinin həyata keçirilməsi, dövlət büdcəsi ilə bağlı parlamentin, icra hakimiyyətinin, ali maliyyə nəzarəti qurumunun və fiskal orqanların birgə məsuliyyətinin müəyyən edilməsi, maliyyə intizamının gücləndirilməsi baxımından əhəmiyyətindən bəhs edib.

Azər Əmiraslanov bildirib ki, ötən ilin büdcəsi dövlətin mühüm sosial-iqtisadi vəzifələrinin həyata keçirilməsi, əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması, təhlükəsizliyin təmin edilməsi üçün etibarlı maliyyə təminatı yaradıb. O, bunları nəzərə alaraq qanun layihəsinin üçüncü oxunuşda qəbul edilməsini məqsədəuyğun hesab edib.

Qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.

İclasda çıxış edən maliyyə naziri Sahil Babayev ötən ilin dövlət büdcəsinin icrası ilə bağlı məhsuldar müzakirələrin keçirildiyini söyləyib. O, 2024-cü ilin Azərbaycan üçün uğurlu olduğunu, həm makroiqtisadi sabitliyin, həm makrofiskal sabitliyin qorunduğunu, önəmli dövlət proqramlarının, o cümlədən "Böyük Qayıdış Proqramı"nın uğurla icra edildiyini, ölkənin müdafiə qabiliyyətinin gücləndirildiyini, habelə sosial rifah məsələlərinin büdcədə geniş şəkildə əhatə edildiyini vurğulayıb. Nazir ümumilikdə 2024-cü ilin dövlət büdcəsinin həm gəlirlərinin, həm də xərclərinin icrasında müsbət dinamikanın müşahidə olunduğunu bildirib.

Spiker Sahibə Qafarova gündəliyin növbəti 2 məsələsinin ölkə Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olduğunu, hər iki qanun layihəsinin Səudiyyə Ərəbistanı Krallığı ilə müxtəlif sahələrdə Anlaşma memorandumlarının təsdiq edilməsi ilə bağlı olduğunu deyib. O, "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə əsasən, bu layihələrin bir oxunuşda qəbul ediləcəyini bildirib.

Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Səudiyyə Ərəbistanı Krallığının Ətraf Mühit, Su və Kənd Təsərrüfatı Nazirliyi arasında bitki mühafizəsi və karantini sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsini təqdim edib. Komitə sədri nəzərə çatdırıb ki, Anlaşma Memorandumu 2025-ci il aprelin 28-də Ər-Riyad şəhərində imzalanıb. Sənəd bitki mühafizəsi və karantini sahəsində hər iki dövlətin milli qanunvericiliyinə uyğun olaraq, fitosanitar tədbirlərin əlaqələndirilməsini təmin etmək, bərabərlik və qarşılıqlı faydalılıq prinsipləri əsasında uzunmüddətli əməkdaşlıq əlaqələri qurmaq və davam etdirmək məqsədinə xidmət edir. 16 maddədən ibarət Memorandumun müddəaları karantin nəzarətində olan materiallara, o cümlədən torpağa, zərərli orqanizmlərin məskunlaşmasına və çoxalmasına şərait yaradan bütün orqanizmlərə, obyektlərə və materiallara şamil edilir.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov sənəd barədə komitənin müsbət rəyini açıqlayıb.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Zaur Şükürov Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Səudiyyə Ərəbistanı Krallığının Nəqliyyat Baş İdarəsi arasında "Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair 1978-ci il tarixli Beynəlxalq Konvensiya"nın (əlavələrlə) I/10 qaydasına uyğun olaraq sertifikatların qarşılıqlı tanınmasına dair Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsini təqdim edib. Millət vəkili bildirib ki, Anlaşma Memorandumu 2025-ci il aprelin 28-də Ər-Riyad şəhərində imzalanıb. Memorandumun məqsədi dənizçilərin peşə hazırlığı və sertifikatlaşdırılması sahəsində qarşılıqlı etimadın təmin olunması və konvensiyanın tələblərinə uyğun olaraq verilmiş sertifikatların tanınması üçün prosedurların müəyyən edilməsidir.

Sənədə əsasən, tərəflər dənizçi heyətinə verilmiş ixtisas, tibbi yararlılıq və digər sertifikatların qarşılıqlı tanınmasını, həmin sənədlərin autentikliyi və etibarlılığı barədə sorğuların göndərilməsini və cavablandırılmasını, eləcə də bu istiqamətdə operativ informasiya mübadiləsinin aparılmasını öhdələrinə götürürlər. Həmçinin tərəflərin nümayəndələrinin dənizçilik təhsili, təlim obyektləri və tətbiq olunan prosedurlarla tanış olması məqsədilə qarşılıqlı səfərlərin təşkili, sertifikatların tanınması, dayandırılması və ya geri çağırılması hallarının qarşı tərəfə yazılı şəkildə bildirilməsi, məlumat bazalarının yaradılması, əməkdaşlığın institusional əsasda davam etdirilməsi nəzərdə tutulur. Memorandumun qüvvəyə minməsi, müddəti, dəyişdirilməsi və ləğv olunması qaydaları da ayrıca maddələrdə göstərilib.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov məsələ ilə bağlı rəhbərlik etdiyi komitənin müsbət rəyini söylədikdən sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə və 130-cu maddəsinin II hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Aşağıdakı şəxslər Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimləri təyin edilsinlər:

Qvaladze Otari Rafaelyeviç,
Tutayuk Fərhad Xaspolad oğlu,
Quliyev Rauf Rəhim oğlu,
Rzayev Rəşid Şükür oğlu.

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

Sahibə QAFAROVA,
Azərbaycan Respublikası Milli Məclisinin Sədri

Bakı şəhəri, 4 iyul 2025-ci il

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Konstitusiya qanununun layihəsini (ikinci oxunuş) təqdim edib. O, birinci oxunuşda layihə barədə geniş məlumat verildiyini və deputatların bu sənədi dəstəklədiyini söyləyib. Komitə sədri Naxçıvan Muxtar Respublikası Konstitusiyasının Azərbaycan Konstitusiyasının tərkib hissəsi olduğunu və bir sıra məsələlərin konstitusiyaya əlavə və dəyişikliklər edilməklə öz həllini tapdığını bildirib.

Layihəyə əsasən, Azərbaycan Konstitusiyasının 134-cü maddəsinin III hissəsində qeyd olunan Naxçıvan Muxtar Respublikasının Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olmağı ilə bağlı müddəa Naxçıvan Muxtar Respublikası Konstitusiyasının preambulasında da öz əksini tapacaq. Əlavə edilməsi nəzərdə tutulan "Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi" adlı 3-1-ci maddəyə əsasən, Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi Naxçıvan Muxtar Respublikasının ərazisində Azərbaycan Prezidentinin müəyyən etdiyi vəzifələri yerinə yetirən icra orqanıdır və ona rəhbərliyi Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən və birbaşa Prezidentə tabe olan Naxçıvan Muxtar Respublikasında Prezidentin səlahiyyətli nümayəndəsi həyata keçirir. Digər dəyişikliyə əsasən, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər Ali Məclis Sədrinin təklifləri əsasında Azərbaycan Prezidenti tərəfindən təyin ediləcək. Daha bir dəyişiklik Naxçıvan Muxtar Respublikasında yerli icra hakimiyyətləri başçılarının Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təqdimatı əsasında Azərbaycan Prezidenti tərəfindən vəzifəyə təyin edilməsi ilə bağlıdır. Həmçinin muxtar respublikanın Nazirlər Kabineti Naxçıvan Ali Məclisinə tabe olmayacaq və iş qaydasını Azərbaycan Prezidenti ilə razılaşdırmaqla müəyyənləşdirəcək. Sənəddə habelə Azərbaycan Konstitusiyasına uyğunlaşdırma, dəqiqləşdirmə və texniki xarakterli bir sıra dəyişikliklər də nəzərdə tutulub.

Məsələ ətrafında müzakirələrdə parlamentin komitə sədri Fazil Mustafa, deputatlar Gülşən Paşayeva, Erkin Qədirli çıxış edərək öz fikirlərini səsləndiriblər.

Konstitusiya qanununun layihəsi ikinci oxunuşda qəbul edilib.

Komitə sədri Əli Hüseynli "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə konstitusiya qanunu layihəsini (ikinci oxunuş) də təqdim edib. Bildirib ki, dəyişikliyin edilməsində məqsəd Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına ediləcək dəyişikliklərdən sonra "Normativ hüquqi aktlar haqqında" konstitusiya qanununun 2.10-cu maddəsində yarana biləcək uyğunsuzluğun aradan qaldırılmasıdır.

Konstitusiya qanununun layihəsi ikinci oxunuşda qəbul edilib.

İclasda "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, "Polis haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, "Müdafiə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında, "Təhsil haqqında" və "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə, Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında", "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə, "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" və "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında, "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, "Dövlət borcu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Dövlət rüsumu haqqında", "Reklam haqqında", "Lisenziyalar və icazələr haqqında", "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihələri də ikinci oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova gündəliyin son 5 məsələsinin birinci oxunuşda qanun layihələri olduğunu nəzərə çatdırıb.

İnsan hüquqları komitəsinin sədri Zahid Oruc Azərbaycan Respublikasının Mülki Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, "Media haqqında" və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə" qanun layihəsini (birinci oxunuş) təqdim edib. Komitə sədri bildirib ki, sənədə əsasən, "Media haqqında" qanunda "Media subyekti" anlayışı Azərbaycanda xarici media subyektlərinin filial və nümayəndəliklərini də əhatə etməsi məqsədilə genişləndirilib. Xarici media subyektlərinin filial və nümayəndəliklərinin Azərbaycanda fəaliyyət qaydasının beynəlxalq müqavilələrlə tənzimlənməsi nəzərdə tutulur, ölkəmizdə fəaliyyət göstərəcək filial və nümayəndəliyin Dövlət Vergi Xidmətində (DVX) qeydiyyatdan keçdikdən sonra Media Reyestrinə daxil edilməsi üçün müraciət etməsi tələbi gətirilir. Bununla yanaşı, "xarici jurnalistlər" ifadəsi "xarici media nümayəndələri" ifadəsi ilə əvəzlənir.

Layihədə həmçinin saxta məlumatların dərci və yayımını qadağan edən norma müəyyən edilir. İnformasiya agentliklərinə münasibətdə xarici ölkələrdə akkreditasiyadan keçmiş jurnalistlər və digər subyektlərlə informasiya əldə edilməsi (verilməsi) barədə müqavilələr üzrə minimum say müəyyənləşdirilir, həmçinin istehsal etdikləri informasiyanın minimum nisbətinə dair tələblər təsbit olunur.

Media subyektlərinin (redaksiyalarının) adlarının digər media subyektlərinin adları ilə eyni və ya oxşar olmaması, onların adlarında ictimai qaydaya, mənəviyyata və əxlaqa zidd olan, istifadəçiləri yanılda bilən ifadələrdən istifadə edilməməsinə dair norma əlavə edilir. Media Reyestrində olmayan, şantaj, böhtan xarakterli, qərəzli materiallar, saxta məlumatlar dərc edən qəzetlərin fəaliyyətinin qarşısının alınması məqsədilə onların nəşri və yayımı qadağan olunur. Media Reyestrində olmadan həyata keçirilən media fəaliyyətinin qanunsuzluğu birbaşa təsbit edilir.

Xarici media subyektlərinin filial və nümayəndəlikləri də daxil olmaqla, bütün media subyektlərinin onlayn resurslarına münasibətdə mediada dərci və yayımı qadağan olunan materiallar üzrə tədbirlərin görülməsinin Medianın İnkişafı Agentliyinin səlahiyyətlərinə aid edilməsinə dair dəyişiklik edilir.

Qeyd edilib ki, Mülki Məcəllədəki dəyişiklikdə Medianın İnkişafı Agentliyinin müraciəti əsasında DVX tərəfindən bu Məcəllənin 59 - 61-ci maddələrində hüquqi şəxsin ləğv edilməsi ilə bağlı qaydalar tətbiq edilmədən Azərbaycan Respublikasında xarici media subyektlərinin filial və nümayəndəliklərinin ləğv olunaraq hüquqi şəxslərin dövlət reyestrindən çıxarılmasının təmin edilməsi nəzərdə tutulur.

İnzibati Xətalar Məcəlləsində Media Reyestrində olmadan fəaliyyət göstərən çap mediası subyektinin çap mediası məhsulunun həmin subyekt, nəşriyyat və ya yayıcı tərəfindən nəşri və ya yayımına görə inzibati məsuliyyət müəyyən edilir.

"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanunda isə xarici media subyektinin filial və nümayəndəliyinin beynəlxalq müqavilədə nəzərdə tutulmadan və ya Media Reyestrinə daxil edilmədən fəaliyyət göstərməsi, habelə Media Reyestrindən çıxarılması DVX tərəfindən onun ləğvi üçün əsas kimi müəyyənləşdirilir.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Elşən Musayev qanun layihəsinin xarici media subyektlərinin filial və nümayəndəliklərinin Azərbaycan Respublikasında fəaliyyət qaydasının beynəlxalq müqavilələrlə tənzimlənməsini nəzərdə tutduğunu qeyd edib və təmsil etdiyi komitənin məsələyə dair müsbət rəyini səsləndirib.

Müzakirələr zamanı Milli Məclis Sədrinin müavini Musa Qasımlı, komitə sədri Sadiq Qurbanov, deputatlar Qüdrət Həsənquliyev, Elnarə Akimova, Sevil Mikayılova məsələ barədə öz fikir və qeydlərini açıqlayıblar.

Qanun layihəsi birinci oxunuşda qəbul olunub.

Spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, növbəti iki məsələ ölkə Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olub və mahiyyətcə birbiri ilə bağlıdır. Ona görə də layihələrin təqdimatları və müzakirəsi birlikdə aparılıb.

Gündəliyin 19-cu məsələsi olan "Xüsusi icra məmurları haqqında" qanun layihəsi (birinci oxunuş) ilə bağlı Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, sənəd icra sisteminin səmərəliliyinin artırılması məqsədilə hazırlanıb. Komitə sədri layihədə təklif olunan xüsusi icra institutunun yaradılmasının əsasları, yeni institutun funksiyaları, səlahiyyətləri, fəaliyyət istiqamətləri barədə məlumat verib. Qanun layihəsinin hazırlanması zamanı öyrənilən beynəlxalq təcrübədən danışan Əli Hüseynli icra sisteminə əlavə dəstək kimi yaradılan xüsusi icra institutunun qərarların icrasının sürətləndirilməsinə və effektivliyinin artırılmasına xidmət edəcəyini vurğulayıb.

Əli Hüseynli gündəliyin 20-ci məsələsi olan Mülki Prosessual Məcəllədə, Mülki Məcəllədə, Vergi Məcəlləsində, Cinayət-Prosessual Məcəlləsində, Cəzaların İcrası Məcəlləsində, Rəqabət Məcəlləsində, "Sosial sığorta haqqında", "Polis haqqında", "Tibbi sığorta haqqında", "Notariat haqqında", "İcra məmurları haqqında", "İcra haqqında", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında", "İnzibati icraat haqqında", "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Nağdsız hesablaşmalar haqqında" və "Siyasi partiyalar haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı bildirib ki, sənəd hal-hazırda Milli Məclisin müzakirəsinə təqdim edilmiş "Xüsusi icra məmurları haqqında" qanun layihəsinə uyğunlaşdırmaq məqsədilə hazırlanıb.

Sonra 20-ci məsələ ilə bağlı İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov, Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafa rəhbərlik etdikləri komitələrin qanun layihəsi barədə müsbət rəylərini diqqətə çatdırıblar.

Sənədin müzakirəsində komitə sədrləri Fazil Mustafa və Zahid Oruc çıxış ediblər, fikirlərini bildiriblər.

Ədliyyə nazirinin müavini Toğrul Hüseynov çıxış edərək, xüsusi icra məmurlarının seçilməsi prosedurları, hazırlığı, onların fəaliyyətinə nəzarət və digər məsələlərlə bağlı layihədə təsbit olunan mexanizmləri şərh edib.

Sonra hər iki qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Gündəliyin 21-ci məsələsi - "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında", "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" və "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" qanunlarda dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) ilə bağlı Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verib. O bildirib ki, sənəddə şəxsiyyət vəsiqəsində olan məlumatların dairəsində dəyişiklik edilməsi təklif olunub. Belə ki, şəxsiyyət vəsiqəsində göstərilən məlumatlara yaşayış yeri və vətəndaşlıq məlumatları əlavə edilir.

Təklif olunan digər dəyişiklik ondan ibarətdir ki, vətəndaşın ailə vəziyyəti, valideynləri, uşaqları, hərbi vəzifəsi və digər məlumatlar artıq birbaşa elektron daşıyıcıda deyil, İdarələrarası Avtomatlaşdırılmış Məlumat-Axtarış Sistemi vasitəsilə saxlanılacaq. Bundan başqa, qanun layihəsində vəsiqənin verilməsi qaydalarına da dəyişikliklər təklif olunur. Vəsiqə dəyişdirilməli olan hallara yaşayış yerinin dəyişməsi əlavə olunur.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Gündəliyin sonuncu məsələsi olan Torpaq Məcəlləsində, Mülki Məcəllədə, Vergi Məcəlləsində, Mənzil Məcəlləsində, "Torpaq islahatı haqqında", "Torpaq bazarı haqqında", "Notariat haqqında", "İcra haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında" və "İpoteka haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) də Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli təqdim edib. Bildirilib ki, layihə icra sənədinə əsasən satılmalı olan əmlakın, borclunun üzərinə həbs qoyulmuş əmlakının və ipoteka predmetinin satılması ilə bağlı kompleks tənzimləməni nəzərdə tutur. Belə ki, borclulara şərait yaradılır ki, əmlakı özləri satışa çıxarsınlar. Komitə sədri bu məqsədlə layihədə təsbit olunan mexanizmləri diqqətə çatdırıb.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov, Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev məsələyə dair rəhbərlik etdikləri komitələrin müsbət rəylərini bildirəndən sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Rəşad CƏFƏRLİ,
"Azərbaycan"